# Heç Tanrının da xəbəri yoxdu

*Kənan Hacının "Fironun dəftəri" romanı barədə*



■ Ülvi Babasoy

Kənan Hacının "Fironun dəftəri" romanı rahat oxunur. "Fironun dəftəri"ni oxuyub ixtiyarsız bilgisayara yaxınlaşdım. Kənan "Fironun dəftəri"ndə belə bur sual qoyub: Taledən qaçmaq olurmu? Elə ilk sual oxucunu düşündürür. Bir az da çətinə salır. Özü də müəllifin yozum və diktəsi ilə deyil. Hadisələr və psixoloji vəziyyətlərdən doğur suallar. Fironun bəxti yerli-dibli gətirməmişdi. Ona Firon adı qoymuşdular. Kasıbdı. Mağmındı. Fərsizdi. Hər kəs onu ələ salırdı. Lağlağı edirdilər.

Fironun qismətinə kasıb və gözüqıpıq böyümək düşür. Sürətlənən zamanda o da inkişaf edir. Böyüyür. Zənginləşir. Artıq bahalı maşınlar, otellər, saunalar, qızlar bəzəyir Fironun kasad həyatını. Hamı Fironun ətrafında dövrə vurur. Yaltaqlanır. Kənan Hacı romanda bunu kəşf edir: Məhrum yaşamağın lənəti. Adi bir köynəyə də həsrət qalan uşaq. Ziyasız, təhsilsiz mühit. Varikoz effekti yaradan yazıçı təhkiyəsi yeni və tanış bir dünya yaradır. İkisi bir arada necə olur?

Mövzu tanışdı. Gündəlik həyatda çox görürük. Yazıçının yanaşması və sənətdə kəşfi yenidir. Tənha və bəxtsiz gənclərin puç olan həyatlarına qədim əhvalatla işıq salır. Bəzən mətn içində mətn yaradır. Firon nəql etdiyi müxtəlif hadisələrin sonunda deyir: Əslində hekayə yazmalıydım. Həmin hekayələr ayrılıqda müstəqil əsər kimidi. Kənan montaj roman texnikasından istifadə edir. Hekayələrdə daha incə və mikroskopik detalları işləyir. Xırda həqiqətlər birləşib təsir yaradır. Dəqiq müşahidələrin sənətə çevrilməsi baş tutur. Kənan digər romanlarında bu qədər həssas və miqyaslı müşahidə aparmamışdı. "Yağ kmi" və "Rəqqasə" romanlarının əskik cəhəti bu idi. "Yaddaş kartı" alınmışdı. Memuar ədəbiyyatın yaxşı nümunələrindəndir. Köhnə Bakıya səyahət əsrarəngizi. Romanlarında isə mövzuya daha çox hissi yanaşmışdı. Çaparaq bitən hadisələr çoxdu. "Yağ kimi" və "Rəqqasə" romanları Kənan Hacı estetikasının formalaşmasında mərhələydilər. Qoyulan problem mətndə istənilən səviyyədə ifadə olunmurdu. Kənan bu romanlarında ayrı-ayrı məqamlarda uğurluydu. Mətnin bütöv energetikası zəif idi. "Fironun dəftəri" yeni və zəruri mərhələnin səhifəsini açdı.

"Fironun dəftəri" qədim Misir hökmdarı ilə müasir insanın arasında əlaqə yaradır. Musa peyğəmbər və Tanrı ilə mübarizə aparan fironla müasir firon qarşılaşdırılır. İndi tale və həyatın məngənəsindən xilas olmaq istəyən Firon Kənanın yetkin üslubunda təqdim olunur. Arzuların fironu. Daha çox zövq almaq, daha çox dad bilmək, vaxtilə əli çatmayan şeyləri əldə etmək, daha çox, daha, daha çox qazanmaq və xərcləmək. Taledən qisas almaq. İtirdiklərinin heyfini çıxmaq. Bəs itirdikləri nə idi? Kənanın ikinci sualı. Atası, anası, zəhmət, halallıq və hüzur... Buna cavab verməyə macal vermir "Fironun dəftəri". Cavabdan da betər bir sual sarsıdır hər kəsi. Çıxardır yerindən dünyanın oxunu. Bəs tapa bilirmi bu qədər itən dəyərləri?

Xəstə ataya ölüm yatağında qayğı göstərməyən, ananı qocalar evinə atan övlad. Fironluğun son həddi. Kənanın göstərmək istədiyi bu deyil. Yoxsa hər gün belə hallara şahid oluruq. Kasıb və süst mühitdə böyüyən uşaq. Uşağın bu cür yaşamağına səbəb olan vecsizlərdi. Şərin bədii quruluşudur "Fironin dəftəri". Başqalarının haqqını yeyən cəmiyyət yaradır fironları. Gözəl xislətləri udur və şər yayılır bütün cəmiyyətə. Kənanın dekonstruksiyası orqanikdi. Texniki bənzətmə deyil. Misir fironunun etdikləri yenidən təkrarlanır. Ancaq mexaniki ritual olmur. Estetik ritual formalaşır. Firon əhvalatı məzmunda yenilənir. Bu zaman çevrilmə baş verir. Fironluğu hökmdarın əvəzinə heç bir sosial status, mövqeyi olmayan, "yazıq", "fağır" bir adam edir. Kənanın böyük uğuru. Dünyanı kəndin, məhəllənin içinə yığır. Ora firavan ömür sürən, kef çəkənlərə ayna olur... Sosial təminat və təminatsızlığın fərqləri üzə çıxır. Aradakı uçurumlar və haqsızlıqlar Firon kimi ömür çürüdən səfillərlə həqiqət görsənir. Romanın miqyası məhz burda böyüyür. Dünyanın, fironlaşmış cəmiyyətin modeli yaradılır. Burda kişilər yük, qadınlar dərd, uşaqlar "ot" çəkir. Firon hər cür fırıldağa əl atır. Çünki cəmiyyətdə halal heç nəyin olmadığını dərk edir. Canı ilə əlləşən, xəstə ananın pulunu oğurlayıb qızlara, "həzzə" xərcləyir. Makro mühitdə olan əyrilər mikro mühitə sıçrayır. Dərdlərini unutmağın yolu tapılır. İnsan özü öz ürəyini məhv edir. Kənan sosial problemlərin psixologiyasını çözür.

"Fironun dəftəri" daha böyük fironlardan xəbər verir. Firon itirdiklərini heç vaxt əldə edə bilməyəcək. Çünki daha yırtıcı fironlar var bu həyatda . Hər şey onların əlindədi. Kənanın daha dəhşətli sualı: Bəs bu taledirmi?

Fironun yaşadığı dünyada qədərə, taleyə ehtiyac yoxdur. Çünki balaca insanların taleyi haqda böyük insanlar hökm verir. Tanrının yazıpozusu gərəksizdir. O da xəbərsizdir bütün bu olanlardan. Belə bir hökmü düşməni şeytanın barəsində belə verməzdi tanrı. Bu, lap bülbülü öldürməkdi ki. Harper Linin "Bülbülü öldürmək" romanında Tom Robinsonu öldürürlər. Niyə? Çünki Tom zəifdi, Tom qaradı, Tomun əlində inzibati güc yoxdu. Sovet dövründə "Quşcuğaza qıymayın" kimi tərcümə ediblər bunu. İlk baxışda gülməli görsənir. Ancaq maraqlıdır. Quşcuğaza qıymaq. Bu roman mənə Erdal Ereni xatırlatmışdı. Onun xatirəsinə bir esse də yazmışdım. Türkiyədə 1980 hərbi çevrilişindən sonra mitinq edən gənclərlə birgə həbs etmişdilər Erdalı. Yaşı on yeddiydi. Edam cəzası düşmürdü. Ona görə doğum şəhadətnaməsini dəyişdirdilər. Yaşı artıb oldu on doqquz və asdılar. Quşcuğaza qıydılar. Saf və mübariz bir gənc məhv edildi. Fironun da bülbül kimi şən, şaqraq həyatı əlindən alınır. Uşaqlığı əlindən alınır. Balaca vaxtı alınan travmaların və məhrumluğun nəticəsi onu fironlaşdırır. Azğınlaşır.




"Fironun dəftəri" romanı təhkiyə üzərində qurulmuş mətndir. Sırf təhkiyə əsasında mətn yazmaq çətindir. Kənan Hacı bəzi məqamlarda vacib hadisələrin ötəri xarakteristikasın verib keçir. Bu da romanın dinamikliyin zəiflədir. Mətnin temperamenti aşağı düşür. "Eşitmişdim, görmüşdüm, getmişdim, gəlmişdim" kimi quru cümlə və hadisələrə çevrilir. Xüsusən, birinci şəxsə aid olan xarakter-təhkiyəçinin bu cür danışması əskik cəhətdir. Yenə də Kənan Hacı Firon əhvalatını müasir həyata uğurla transformasiya edir. Aytmatov, Folkner və Lyosa da olan təhkiyə daxilində dinamika və göstərmə bacarığı "Fironun dəftəri"ndə də müşahidə olunur.

Gənc yaşında Fronu öldürən nə idi? Dərd. Dərdən ürəyi şişir və yaşamla vidalaşır. Tanrı belə xəbərsizdi onu həyatından, yaşamağından. Ölümü də elə olur. Səssiz, kirimişcə çıxıb gedir. Bəlkə tanrıya qovuşur. Təki elə olsun. Heç olmasa orda yada salsın onu Tanrı.

Həyatımda əvəzsiz yeri olan, oxuduğu qalaq-qalaq kitablardan, yaşadığı olaylardan və eşitdiyi əfsanələrdən söz çələngi hörən babam deyərdi. Bala, gərək Allah adamı unutmaya. Kənan Hacı isə deyir ki, gərək adam adamı unutmaya. İnsan unutmasa hər şey düzələr. Fironlaşmaz heç kim.

Unutmaq bir bəladır ki... Firon da o boyda dəftər yazıb getdi ki, unutmayaq. Bəs unutqan varlıq insan necə etməli ki, unutmasın? "Fironun dəftər"ini oxusun...